CƏLİL MƏMMƏDQULUZADƏNİN DRAMATURGİYA DİLİNDƏ AİLƏ-MƏİŞƏT ÜSLUBU STANDARTLARI

Samirə MƏRDANOVA,
BDU-nun dosenti

Açar sözlər: *Cəlil Məmmədquluzadə, dramaturgiya dili, ailə-məişət üslubu, İskəndərin nitqi, ailədaxili ünsiyyət, etnoqrafik nitq standartları.*
Ключевые слова: *Джалил Мамедкулизаде, язык драматургии, семейно-бытовой стиль, речь Искендера, внутрисемейное общение, этнографические речевые стандарты.*
Keywords: *Jalil Mammadguluzadeh, language of the plays, family-everyday style, Iskender's speech, domestic communication, ethnographic speech standards.*

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında Azərbaycan ailələri fəal iştirak edirdilər. Və bu kütləvi iştirak, adətən, rus dilini bilməyin sayəsində mümkün olurdu. Lakin rus dilini bilmək o qədər üzdən olan hadisə idi ki, istər-istəməz, anadilli məişət yaddaşına istinad etməli, qohum-əqrəba mühiti ilə hesablaşmalı olurdu.

Həmin illərdə meydana çıxan "Molla Nəsrəddin" jurnalı ilk nömrəsində "Lisan bəlası" adlı bir şeir vermişdi ki, onun da müəllifi jurnalın yaradıcısı M.Cəlil idi:

...Qoy qonşuların alsın ələ cümlə silahı,
Salsın səni dəvayə əgər xah nə xahi,
Sən dinmə və tərpəşmə, qəbul etmə günahı,
Lənət elə qəlbində, ürəkdən götür ahi,
Bizlər nəçiyik, qoy özü hökm etsin ilahi.
Sal başını aşağə və heç baxma yuxarı,
Lal ol və danışma.
Ey dil, dəxi dinmə və sükut et səni tarı,
Mal ol və danışma.
Gər cümlə təvaif sənə əfsus edə, etsin,
Axırda hökümət özünü rus edə, etsin!
Həm mollaların rus əlini bus edə, etsin,
İslam cahanda dəxi məyus edə, etsin,
Ya etməyə, ya ar və namus edə, etsin,
Şükr et, yegilən bozbaşını, eylə naharı,
Lal ol və danışma... (1, s. 611-612).

"Molla Nəsrəddin" belə bir sosiolinqvistik mənzərə yaradır:

mükəmməl bir xalq (ailə-məişət) dili – mövcud ictimai-siyasi proseslərdə iştirak eləmək üçün "vasitəçiliy"in olmaması və ya yarıtmazlığı – "lallıq", yəni ictimai-siyasi ünsiyyətdən kənarda qalmaq.

Məsələ burasındadır ki, XX əsrin əvvəllərində ailə-məişət üslubu ön plana keçərək Azərbaycan ədəbi dilinə strateji istiqamət vermək gücündə idi, lakin cəmiyyətin özündə baş verən parçalanma, intellektual səviyyədə "möhtəkirlik" və bunun imperialist maraqlara xidmət etməsi həmin strateji gücün etnoqrafik məhdudiyyət çərçivəsindən kənara çıxmasına imkan vermirdi. Ona görə də millətin "lal" olmadığını sübut etməyə çalışan milli ziyalıların əsas məqsədi Füzuli xətti ilə "klassik" dili yox, xalq-məişət dilini qorumaq, hətta onu ideallaşdırmaq idi.

Əlbəttə, "çoban-çoluq dili"ni ideallaşdırmaq dövrün müstəmləkəçilik maraqları (və idealları!) nöqteyi-nəzərindən xeyli dərəcədə qeyri-ciddi görünürdü, lakin millilik amili, XX əsrin əvvəllərində o qədər ciddi idi ki, özündə "ölülər"i də diriltmək gücü hiss edirdi.

"Ölülər"də də Mirzə Cəlil XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycan ailə-

məişət həyatının mahiyyətinə nə qədər varırsa, həmin dövr ailə-məişət dilinin mövcud standartlarına da o dərəcədə əməl edir:

"Nazlı (sevincək anasına): Ana, başına dönüm! Ana, o qadanı alım! Ana, deyirlər, bu gələn qonağımız ölüləri dirildir. Qadanı alım, ana, bir de görüm, doğrudur, ya yox? (Anasını qucaqlayır).

Kərbəlayı Fatma xanım: Ay qız, mən nə bilim? Mən də sənin kimi. Deyirlər, Xorasanda on yüz adam dirildib. Hələ məni ötür, indi qonaqların gəlmək vaxtıdır, qoy işimi görüm. Ay qız, Zeynəb, tez ol yasdıqları gətir, bu tərəfdən qoy. Bu xalçanı bir az bu tərəfə çək. Tez ol! Bir az çəpik tərpəş!

Nazlı: Ana, vallah, bilmirəm ağlayım, ya gülüm. Vallah, gör fikrimə nə gəlir. Ana, ürəyimdə bir söz var, qoy deyim (anası dinmir).Ana, vallah, qonağımıza yalvaracağam, onun ayağına düşəcəyəm (ağlaya-ağlaya), mənim Sara bacımı da diriltsin.

Kərbəlayı Fatma xanım: "Ay qız, nə bilim (yerə çöküb üzünü çarğatının ucu ilə örtür və başlayır ağlamağa)" (1, s. 394).

Ana ilə qızı arasındakı bu dialoqda ailə-məişət üslubu standartları özünü həm fonetik, həm leksik, həm də sintaktik səviyyədə göstərir:

a) fonetik səviyyə - xalq danışıq dili intonasiya rəngarəngliyinin son dərəcə dəqiqliklə saxlanılması, hiss-həyəcan bildirən nitq aktlarının bir-birini əvəz etməsi, sintaktik təkrarların çoxluğu və s.

b) leksik səviyyə - mətnin leksik tərkibinin bütünlüklə ümumişlək leksikondan ibarət olması; məsələn: ana, qız, bacı, qonaq, adam, iş, yasdıq, ağlamaq, gülmək, yalvarmaq, başına dönmək, qadasını almaq, ayağına düşmək və s.

c) sintaktik səviyyə - xalq danışıq dili üçün səciyyəvi olan sadə cümlələrdən istifadə, cümlə üzvləri ilə bağlı olmayan sözlərin zənginliyi; məsələn: Ana, başına dönüm! Ana, o qadanı alım! Ay qız! Vallah, nə bilim və s.

"Ölülər"in dilində ailə-məişət üslubunun müxtəlif təzahür formalarına müraciət, heç şübhəsiz, təqdim olunan ailə-məişət situasiyalarının çoxspektrliyindən irəli gəlir:

"İskəndər: Ay qız, Nazlı, muştuluğumu ver! Nişanlın gəldi.

Kərbəlayı Fatma xanım (İskəndərə acıqlı): Kəs səsini! Axmaq-axmaq danışma!

Mir Bağır başını salır aşağı.

İskəndər (gəlib durur Mir Bağırın qabağında): Mən ölüm, əl ver! Lotusan, həyə, əl ver! Vallah, ruhun var, düz doqquz yaşında, gərək bircə tikə artıq olmasın... Quzu əti, şax, tazə-tər, lətif, balaca. Ağzından süd qoxusu gəlir... Ləzzət, ləzzət!.. Vallah, ruhun var! Lotusan, həyə, əl ver!

Mir Bağır ağa (İskəndərə): Ayıbdı, ayıbdı! Heç olmasa, anandan həya eylə, o sözləri danışma.

Kərbəlayı Fatma xanım: Onun həyası olsa, niyə o sözləri danışır?" (1, s. 396-397).

İskəndərin sərt ironiyası, anası Kərbəlayı Fatma xanımın bu ironiyaya qarşı işlətdiyi "ağır" ifadələr, eləcə də gələcək kürəkən Mir Bağır ağanın söhbətə qarışması kifayət qədər mürəkkəb nitq situasiyası yaradır: a) İskəndərin ironiyası bütün sosial-etik məzmunu etibarilə nə qədər əsaslıdırsa, dövrün köhnəlmiş ailə-məişət etikası baxımından o qədər əsassızdır; b) Kərbəlayı Fatma xanımın (anasının) İskəndərə (həmişə sərxoş olan oğluna) "söyüş"ləri nə "əsaslı"dır, nə də "əsassız"dır; c) Mir Bağır ağanın sözləri isə öz mövqeyi olmayan adamın düşdüyü vəziyyətə "təbii" reaksiyadır.

İskəndər ailə-məişət, ümumiyyətlə "bu dünyanın adamı" olmadığına görə, onun nitqi nə qədər ailə-məişət danışığı "stilizasiya"sı (məsələn: Mən ölüm, əl ver! Lotusan!..) ilə verilirsə, o qədər həmin ailə-məişət standartlarına nifrət, qiyam, üsyanla doludur. Lakin İskəndərin həm "personaj şəxsiyyəti", həm də "nitq texnologiyası" bu nifrət, qiyam və üsyanı o qədər "ədəb"lə, təmkinlə təqdim edir ki, hətta Şeyx Nəsrullah kimi "mütəfəkkir" İsfahan lotusu da onun ironiyası qarşısında özünü itirib provakasiyaya əl atmağa məcbur olur:

"Şeyx Nəsrullah (İskəndərə): Belə məlum olur ki, sizin dərsiniz bu ağaların dərsindən azdır ki, bir mənsəbə çata bilməmisiniz.

İskəndər: Bəli, bəli, bunlar elm dəryasıdırlar. İndi ki, inşallah, siz cənabdan ölü diriltmək elmini öyrənərlər, onda daha lap alim olarlar, inşallah!

Şeyx Nəsrullah (hacılara): Hacı Həsən ağa, təvəqqe edirəm, bu biədəbi buradan kənar edəsiniz! Bu mürtəd Allahtəalanın hökmünə istehza eləyir" (1, s. 405).

İskəndərin nitqi XX əsr Azərbaycan ədəbi dili ailə-məişət üslubu üçün, əlbəttə, səciyyəvi deyil, ancaq bu qeyri-səciyyəvilik digər personajların dilinə də aid olduğundan burada söhbət həm personajın, həm də onun nitqinin tragikomik metaforalılığından gedə bilər. Ailə-məişət dilinin incəliklərinə dərindən bələd olan yazıçı-dramaturq qəhrəmanlarının ənənəvi nitq etikasını gözlədiyi şəraitdə də sərt ironiyasını ustalıqla biruzə verir:

Hacı Həsən: Ay qız, Fatma, Nazlının əl-ayağını hazırla, bu gün gərək köçürək şeyxin otağına.

Kərbəlayı Fatmaxanım: Ay Hacı, elə bu tezlikdə?

Hacı Həsən: Bəli, elə bu tezlikdə.

Kərbəlayı Fatmaxanım (bir az fikir eləyəndən sonra): Ay Hacı, vallah, bilmirəm nə eləyim? Lap məəttəl qalmışam, bilmirəm şeyx bu qədər arvadı nə eləyir? Elə gündə birini alır. İndi də bizim qızı istəyir.

Hacı Həsən: Yəni gündə birini alanda bir xilafi-şər iş görmür ki? Allahın əmridi, alır.

Kərbəlayı Fatmaxanım: Hacı, yaxşı deyirsən, amma qorxuram Nazlı atılıb-düşə. Bir də, vallah, Hacı, doğrudan, Nazlı hələ lap uşaqdı.

Hacı Həsən: Axmaq-axmaq danışma! Uşaq olmağını, ya olmamağını mən səndən yaxşı bilirəm" (1, s. 417).

Hacı Həsənin ağlı, təfəkkürü, hissləri o dərəcədə Şeyx Nəsrullahın təsiri altındadır ki, artıq "düşünmədən"danışır və ona uyğun da hərəkət edir. Kərbəlayı Fatmaxanım daha ayıqdır, oğlu İskəndərə münasibətdə işlətdiyi "söyüşlər"i, ərinə qarşı işlədə bilməsə də, hər halda onun ağılsız təklifləri qarşısında susub dayanmır, müxtəlif formalarda etirazını bildirir (məsələn: Ay Hacı, elə bu tezlikdə?.. Ay Hacı, vallah, bilmirəm nə eləyim?.. Amma qorxuram Nazlı atılıb-düşə... Hələ lap uşaqdı...). Məsələ burasındadır ki, Kərbəlayı Fatmaxanımın oğlu İskəndərə ərklə dediyi sözləri Hacı Həsən də arvadına eyni ərklə deyir: Axmaq-axmaq danışma!"

Mirzə Cəlil bu "axmaq-axmaq danışma!" sözlərini ailə-məişət mühitində iki məqamda təqdim edir, hər ikisində də bu sözləri o adam deyir ki, özü həmin vəziyyətdədir. Və bu, yazıçı-dramaturqun ailə-məişət nitqinin ideya-məzmunca "neytrallığ"ında nə qədər stilistik nüansların ehtiva olunduğunu intensiv dövrün ideya axtarışları zəminində konkretləşdirir.

"Ölülər"də İskəndərin hər bir

monoloqu, heç şübhəsiz, böyük ədəbi-bədii dil-üslub abidəsidir, lakin o cəhəti də var ki, hamısı öz ideya-estetik mənşəyini məhz ailə-məişət nitqindən alır:

"Vallah, billah, Şeyx Nəsrullahın başına and olsun, gedib görəcəksiniz ki, evlərinizin qapısı bağlıdır. Bəli, nə eybi var, yerdən bir daş götürüb qapını döyəcəksiniz ki, gəlib açsınlar. Onda qapının dalına bir adam gəlib soruşacaq (Nazik səslə): Ey, qapını döyən, sən kimsən? Bəli, siz cavab verəcəksiniz ki, tez ol, aç qapını mənəm. (Nazik səslə). Axı sən kimsən? Adın nədi? – Aç qapını! Mən bu evin sahibiyəm! (Nazik səslə) – Cəhənnəm ol, qoy get! Biz səni tanımırıq! – A kişi, necə tanımırsınız? Mən Kərbəlayı Hüseynquluyam, bu ev mənimdi. Mənim burda arvadım var, uşağım var. (Nazik səslə) – Çox danışma! İtil cəhənnəmə. Sənin burada heç zadın yoxdur. Qardaşın Hacı Fərəc arvadını da alıb, evinə də sahiblənib, uşaqlarını da göndərib naxıra..." (1, s. 416).

Yəqin ki, bu qədər böyük ictimai ağrını ailə-məişət həyatının (və üslubunun) hüdudlarından kənarda vermək mümkün deyildi. Hər şeydən əvvəl ona görə ki, milli şüurun canlandığı XIX əsrin sonu – XX əsrin əvvəllərində intibahın əsas istinadgahı məhz həmin mühit olmuşdu.

Azərbaycan bədii dilində ailə-məişət üslubu standartlarının təzahürü, eyni zamanda yüksək ədəbi estetik mövqe qazanması baxımından "Ölülər" qədər "Anamın kitabı" da mötəbər tarixi mənbədir. Zəhra bəyim, oğulları Rüstəm bəy, Mirzə Məhəmmədəli, Səməd Vahid, qızı Gülbahar arasındakı söhbətlər dramın dil-üslub mənzərəsini müəyyən edir. Və əsərin əsasında dayanan dramatizmin mahiyyəti də bundan ibarətdir ki, XX əsrin əvvəllərində Azərbaycan ziyalı ailələrində yayılmaqda olan mədəni düşüncə və dil müxtəlifliklər artıq ciddi məişət probleminə çevrilmiş, ailədaxili ünsiyyət normativlərini təhlükə altında qoymaqla elə bir sosial-psixoloji ziddiyyət yaratmışdır ki, bir ananın övladları bir-birini anlamağa çətinlik çəkirlər.

Əlbəttə, bu anlaşılmazlıq, zahirən belə görünür ki, xarici təcavüzün təsiridir, lakin nəzərə alsaq ki, həmin təcavüz az-çox ziyalı bir ailənin içərisinə özünün müxtəlif ziddiyyətli təzahürləri ilə rahat daxil olur, onda ailə ukladının etnoqrafik möhkəmliyinə də şübhə yaranmaya bilməz:

"Zəhra bəyim: Bala, sizin belə mən qadanızı alım, mənim axır siznən vacib işim var... Axır o qızı hər yandan istəyirlər, qız uşağının evdə qalmağının da bir vaxtı var. Nə deyirsən, ay Rüstəm bala? Sən nə deyirsən, Səməd bala? Niyə dinmirsən, Məhəmmədəli bala? Bir deyin görüm, nə məsləhət görürsünüz? Sizə gələn qada-bala mənə gəlsin.

...Rüstəm bəy (kitabı qoyur, durur ayaq üstə): Ana, mən qabaqca da sənə demişəm, indi də yenə deyirəm, qoy oğlanların da eşitsinlər: qız gərək öz xoşu ilə hər kəsə ki, kefi istədi, onu görə və bəyənə və ərə gedə. Dəxi o əsrlər keçibdi ki, qızı zorla istəmədiyi adama ərə verirdilər. Ancaq yenə mən məsləhət görürəm ki, Gülbaharı Aslan bəyə verək.

Mirzə Məhəmmədəli (hirsli): Əstəğfürullah! Əstəğfürullah! Əgər Gülbahar mənim bacımdır, mən bu əmrə hərgiz razı ola bilmərəm!

Rüstəm bəy: Nə səbəbə raz ola bilmirsən? Xub, nə eybi var, razı olmursan, sən de görək kimə verək.

Mirzə Məhəmmədəli: Mən nə bilim? Kimə qismət olar, ona verərik.

Rüstəm bəy: Axır necə kimə qismət olar? Hazır qızı istəyirlər, dəxi yüz il gözləməyəcəyik ki?

Mirzə Məhəmmədəli (bir qədər dinməyib): Mənə qalırsa Gülbaharı Mirzə Baxşəliyə verərik.

Rüstəm bəy gülür.

Səməd Vahid: Necə, Mirzə Baxşəliyə? Müəllim Mirzə Baxşəliyə?

Mirzə Məhəmmədəli: Bəli, haman Mirzə Baxşəliyə.

Səməd Vahid: Bən buna hərgiz razı olmam.

Mirzə Məhəmmədəli (təəccüblü): Necə yəni razı olmazsan? Hələ sən nəçisən?

Səməd Vahid: Bənə qalıyorsa, Gülbaharı Hüseyn Şahidə verməli" (1, s. 443-444).

"Anamın kitabı"nda Mirzə Cəlilin əsas ustalığı ondan ibarətdir ki, yeni tarixi şəraitdə, yəni XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin dil-üslub mədəniyyətinin əsaslandığı ailə-məişət mühitinin möhkəmliyini həm inamla təqdim edir, həm də narahatlığını bildirməkdən çəkinmir. Məsələ burasındadır ki, həmin narahatlıq birbaşa ailə-məişət üslubu ilə bağlı deyil, daha çox onunla əlaqədardır ki, ictimai həyatda özünü göstərməyə başlayan hərəkat-tendensiyalar artıq ailəni, onun ayrı-ayrı üzvlərini öz təsiri altına alır, öz "dil"i ilə danışdırır. Çünki nə Rüstəm bəyin təmsil etdiyi rəsmi-işgüzar, nə Mirzə Məhəmmədəlinin davam elətdirdiyi elmi-dini, nə də Səməd Vahidin əsaslandığı bədii üslub texnologiyaları ənənəvi ailə-məişət üslubundan törəmir, "kənar"dan gəlir, özünün yeganə, düzgün, optimal ünsiyyət hadisəsi olduğunu ailəyə diqtə etməyə çalışır. Ancaq əsərin ideyasından görünür ki, bu cəhd-çalışmalar da israrlı deyil və ciddi qarşıdurmalarla müşayiət olunur.

Mirzə Cəlil kürəkən-namizədlərin nitq nümunələrini təqdim edir:

1) Aslan bəyin nitqi:

"Heç belə deyil, bağışlayasınız. Zakon bu sluçayları tamamən predusmatret eləyibdir. Əgər raznoreçiye elə bir sluçayda oldu ki, onu mədaxil cərgəsində olan punktlar düz gətürmədi, o vədə smetni statyaları o qədər sokratit edirlər ki, il axırında hesab düz gəlir" (1, s. 451).

2) Mirzə Baxşəlinin nitqi:

"Əzayi-gizamdan üzr istəyirəm ki, zeyldə məruzeyi-mühəqqərim ağayani-büzürgüvarın dərdi-sərinə şayəd səbəb ola. Ağama ərz olsun ki, elmi-ilahi dərsləri, elmi-nücum dərsləri, heyət dərsləri və xülasətül-hesab dərsləri məktəb proqramlarında, -necə ki, şayistə və əlzəmdir, - arayişt olunmuyub ki, aya xüsuf və küsuf məsələləri bu saydığımız fununun hansı birisinin dairəsində təhsil olunasıdır..."(1, s. 453).

3) Hüseyn Şahidin nitqi:

"Möhtərəm əzayi-əncümən həzrətlərinə öz ixlasımı təqdim edib, mətləbin ən ibtidasından bir şəmmə izahat verməyi fəzz və qəzz bilib iltimas ediyorum, əfəndim. Arkadaşlar, şimdi həpimiz Tanrımızın buyruğu ilə iştə köyümüzdə torpağa borcunu ödəməkdən qaçacaq tək bir kişi olmaz, onu haycift sürərkən tər olaraq əlimizdən dökmüşüz, yetər! Az əvvəl alçaqca buraxıb savuşduğumuz torpaqlar yetər!" (1, s. 452).

Bu nitq nümunələrinin heç biri Gülbaharın xoşuna ona görə gəlmir ki, onlar qüsurlu və ya mənasızdır. Əksinə, hər biri dövrün tələb və ya ədəbi normativlərinə tamamilə uyğun təsirli nitq nümunələridir. Sadəcə, Gülbahar onunla evlənmək istəyən bu kürəkən-namizədlərin "dil"ini anlamır:

"Rüstəm bəy. Hı, bacım, gördün Aslan bəy nə yaxşı danışır?

Mirzə Məhəmmədəli narazı başını

bulayır.

Gülbahar. Xeyr, dadaş!

Zəhrabəyim (Gülbahara). Ay qız, Aslan bəy danışanda sən yuxulamışdın. Maşallah, yaxşı danışdı.

Rüstəm bəy çəkilir kənara. Səməd Vahid gəlir qabağa.

Səməd Vahid. Gülbahar, gördün Hüseyn Şahid nə gözəl əşar söylədi?

Gülbahar bərk gülür, buna baxıb Mirzə Məhəmmədəli də gülür. Səməd Vahid də çəkilir kənara və Gülbahar gülməkdən sakit olub deyir.

Gülbahar. Qardaşlarım, vallah, sözün doğrusu budur ki, çobanların danışığından savayı mən bir söz başa düşmədim (çıxır gedir içəri otağa).

Rüstəm bəy (Gəlib durur Zəhrabəyimin qabağında və acıqnan deyir). Ana, dəxi bundan sonra qızını kimə istəyirsən ver. Mənim dəxi işim yoxdur.

Mirzə Məhəmmədəli (Rüstəm bəyə). Söz yox ki, Aslan bəy kimi əhməqlərə getməkdənsə, Gülbaharın evdə qalmağı məsləhətdir.

Rüstəm bəy (çox ucadan Mirzə Məhəmmədəliyə). Axmaq-axmaq danışma.

Mirzə Məhəmmədəli (bu da ucadan). Danışacağam!

Səməd Vahid (bu da ucadan). Ədəbsizlər! Əvət, ədəbsizlər!

Üçü də bir-birinə çox hirsli baxaraq çıxıb gedirlər..." (1, s. 437-458).

Mirzə Cəlil böyük mütəfəkkir olaraq yaxşı bilirdi ki, ailə-məişət dili nə bədii, nə elmi, nə publisistik, nə də rəsmi-işgüzar üslub deyil, ancaq istəyirdi ki, bu üslubların hamısı ailə-məişət dilinin, yəni xalq dilinin üzərində yüksəlsin. Ona görə də bütün kürəkən-namizədlərdən imtina edən Gülbaharı çobanla "həmsöhbət"edir:

"Qənbər. Xanımcan, bax, məsələn, Qurban gedir durur qoyunların bir tərəfində, Zaman da gedir durur bir tərəfində ki, qoyunlar dağılmasın. Alıram ağacı əlimə... Ədə, Qurban, hanı boz qumral kərə...

...Gülbahar. İndi nə eləyəcəksən? Qoyun sürüdən yox olanda nə eləyirsiniz?

Qənbər. Xanımcan, bizim qoyunçuluq bir tərəfdən gözəl peşədi: həmişə gəzdiyimiz və yaşadığımız yerlər çəmənlər, laləli və çiçəkli dağlar, daşlar... İçdiyimiz nədir? Bulaq suları və pak qoyun südü... Amma bu heyvanın yox olmağı, üzdən iraq, elə bir dərddir ki, elə bil, bir külfətdən bir övlad yox olub" (1, s. 460).

Bulaq suyu kimi axan bu təmiz dil, əlbəttə, Gülbaharın nə qardaşlarının, nə də kürəkən-namizədlərin dilidir, ancaq bu dil elə zəngin "xammal"dır ki, istənilən dilin funksional üslubları üçün ədəbi mənbə ola bilər.

Əsərin sonunda Gülbaharın monoloqu verilir ki, bu monoloqda üç müxtəlif "dil"də danışan qardaşların bacısı "anasının kitabı"nı oxuyur. Və bu kitab, əslində, ananın qoruyub saxladığı "atanın kitabı"dır ki, belə bitir:

"Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar da, genə əvvəl-axır anaları Zəhranın (əlini anasına tərəf tutur) ətrafında gərək dolanalar, çünki ay və ulduz şəmsin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamül-həyat əziyyət edəcək, nə qədər canında nəfəs var, peşiman olacaq" (1, s. 475).

Beləliklə, Mirzə Cəlil həm dramaturgiya dili ilə ailə-məişət üslubunun etnoqrafik standartlarını bütün miqyası, zənginliyi ilə faktlaşdırır, həm də millətin təəssübkeş ziyalı-mütəfəkkiri olaraq ana

dilinin ideoloji-mənəvi müdafiəsində özünün yüksək intellekti ilə cəsarətlə dayanır.

ƏDƏBİYYAT

1. Məmmədquluzadə C. Əsərləri, Bakı, I c., "Öndər" nəş., 2004, 664 s. Tərtib edəni: İsa Həbibbəyli.

XÜLASƏ

Məqalədə Cəlil Məmmədquluzadənin dramaturgiya dilində ailə-məişət üslubu standartları araşdırılmışdır. Müəllif belə bir qənaətə gəlmişdir ki, "böyük demokrat"ın dramaturji dilində həmin funksional üslub mühüm sosial-ideoloji dəyər qazanmaqla dövrün ümumi nitq proseslərində əhəmiyyətli mövqeyə yüksəlmiş olur. Və ana dilinin əcnəbi təsirlərdən qorunmasında əsas istinadgaha çevrilir.

РЕЗЮМЕ

В статье анализируются стандарты семейно-бытового стиля в драматургии Джалила Мамедкулизаде. Автор статьи приходит к такому заключению, что данный функциональный стиль, приобретя социально-идеологическую значимость в драматургическом языке "великого демократа", тем самым занял ключевую позицию в общих речевых процессах того периода и стал основной отправной точкой в защите родного языка от иноязычного влияния.

SUMMARY

The article deals with the analysis of the standards of the family-everyday style in Jalil Mammadguluzadeh's plays. The author of the article concludes that this functional style having achieved the social-ideological visibility in the "great democrat's" dramatic language took a key position in the common speech processes of that period and became the basic starting point in protection of the national language from the foreign influence.